# Valyuta tənzimi haqqında
# Azərbaycan Respublikasının Qanunu

**(27 noyabr 2001-ci il, 30 aprel 2002-ci il, 3 mart 2006-cı il, 17 aprel 2007-ci il,7 dekabr 2007-ci il və 30 iyun 2009-cu il tarixli qanunlarla qəbul edilmiş dəyişikliklər və əlavələrlə)**

Bu qanun Azərbaycan Respublikasında valyuta əməliyyatlarının həyata keçirilməsi prinsiplərini, valyuta tənzimi və valyuta nəzarəti orqanlarının səlahiyyətlərini və funksiyalarını, hüquqi və fiziki şəxslərin valyuta sərvətlərinə sahib olmaq, bu sərvətlərdən istifadə etmək və onlar barəsində sərəncam vermək sahəsində hüquqlarını və vəzifələrini, valyuta qanunvericiliyinin pozulmasına görə məsuliyyəti müəyyən edir.

## *I fəsil. Ümumi Müddəalar*
### *Maddə 1. Əsas anlayışlar*
Bu qanunda aşağıdakı anlayışlardan istifadə edilib:
1. «Azərbaycan Respublikasının milli valyutası» (bundan sonra «milli valyuta»):
a) tədavüldə olan, eləcə də tədavüldən çıxarılan, lakin tədavüldə olan pul nişanlarına dəyişdirilə bilən Azərbaycan Respublikası Milli Bankının buraxdığı kağız və metal pul nişanları;
b) Azərbaycan Respublikasında banklarda və digər kredit təşkilatlarında hesablarda olan manat vəsaiti;
v) Azərbaycan Respublikasından kənarda yerləşən banklarda və digər kredit təşkilatlarında hesablarda olan manat vəsaiti.
2. «Milli valyutada qiymətli kağızlar» — manatla ifadə edilmiş ödəniş sənədləri (çeklər, veksellər, akkreditivlər və s.), fond sərvətləri (səhmlər, istiqrazlar) və digər borc öhdəlikləri.
3. «Xarici valyuta»:
a) müvafiq xarici dövlətin və ya dövlətlər qrupunun ərazisində tədavüldə olan və qanuni ödəniş vasitəsi sayılan, eləcə də tədavüldən çıxarılmış və ya çıxarılan, lakin həmin ərazidə tədavüldə olan pul nişanlarına dəyişdirilə bilən banknotlar, xəzinə biletləri və sikkələr şəklində pul nişanları;
b) xarici dövlətlərin pul vahidlərində, beynəlxalq pul və ya hesablaşma vahidlərində hesablarda olan vəsaitlər.
4. «Valyuta sərvətləri»:
a) xarici valyuta;
b) xarici valyutada qiymətli kağızlar — xarici valyutada ifadə edilmiş ödəniş sənədləri ( çeklər, veksellər, akreditivlər və s.), fond sərvətləri(səhmlər, istiqrazlar) və digər borc öhdəlikləri;
v) qiymətli metallar — istənilən şəkildə, vəziyyətdə, o cümlədən külçə və affinaj olunmuş (saflaşdırılmış, təmizlənmiş halda), habelə xammalda, xəlitələrdə, yarımfabrikatlarda, sənaye məhsullarında,

kimyəvi birləşmələrdə, zərgərlik və digər məişət məmulatlarında, sikkələrdə, qırıntılarda, istehsal və məişət tullantılarında olan qızıl, gümüş, platin və platin qrupu metalları (palladium, iridium, osmium, rodium və rutenium);
q) qiymətli daşlar — işlənilmiş və işlənilməmiş şəkildə olan təbii almazlar, zümrüdlər, yaqutlar, sapfirlər, aleksandritlər..
Qiymətli metallardan və qiymətli təbii daş-qaşdan hazırlanmış məmulatın, zərgərlik və digər məişət məmulatına, yaxud onların qırıntılarına aid edilməsi qaydası və şərtlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti müəyyən edir.
5. «Rezidentlər»:
a) Azərbaycan Respublikasında daimi yaşayış yeri olan, o cümlədən Azərbaycan Respublikası hüdudlarından kənarda müvəqqəti qalan fiziki şəxslər;
b) Azərbaycan Respublikası qanunvericiliyinə müvafiq surətdə yaradılmış hüquqi şəxslər;
v) Azərbaycan Respublikasında yerləşən və Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq surətdə yaradılmış, lakin hüquqi şəxs olmayan müəssisə və təşkilatlar;
q) Azərbaycan Respublikası hüdudlarından kənarda yerləşən Azərbaycan Respublikasının diplomatik və digər rəsmi nümayəndəlikləri;
ğ) bu bəndin «b» və «c» yarımbəndlərində göstərilmiş rezidentlərin Azərbaycan Respublikası hüdudlarından kənarda yerləşən filialları və nümayəndəlikləri.
6. «Qeyri-rezidentlər»:
a) Azərbaycan Respublikası hüdudlarından kənarda daimi yaşayış yeri olan, o cümlədən Azərbaycan Respublikasında müvəqqəti qalan fiziki şəxslər;
b) xarici dövlətlərin qanunvericiliyinə müvafiq surətdə yaradılmış Azərbaycan Respublikası hüdudlarından kənarda yerləşən hüquqi şəxslər və hüquqi şəxs olmayan müəssisə və təşkilatlar;
v) Azərbaycan Respublikasında yerləşən xarici diplomatik və digər rəsmi nümayəndəliklər, habelə beynəlxalq təşkilatlar, onların nümayəndəlikləri və filialları;
q) bu bəndin «b» yarımbəndində göstərilmiş qeyri-rezidentlərin Azərbaycan Respublikasında yerləşən filialları və nümayəndəlikləri (büro və agentlikləri).
7. «Valyuta əməliyyatları»:
a) valyuta sərvətlərinə mülkiyyət hüququnun və digər hüquqların keçməsi ilə əlaqədar əməliyyatlar, o cümlədən ödəniş vasitəsi kimi xarici valyutadan və xarici valyutada ödəniş sənədlərindən istifadə edilməsi;
b) valyuta sərvətlərinin Azərbaycan Respublikasına gətirilməsi və göndərilməsi, eləcə də Azərbaycan Respublikasından çıxarılması və göndərilməsi;

v) beynəlxalq pul köçürmələrinin həyata keçirilməsi.
8. Xarici valyuta ilə və xarici valyutada qiymətli kağızlarla əməliyyatlar cari və kapitalın hərəkəti ilə bağlı valyuta əməliyyatlarına bölünürlər.
9. «Cari valyuta əməliyyatları»:
a) malların, işlərin və xidmətlərin ixracı və idxalı üzrə hesablaşmaların, eləcə də ixrac-idxal əməliyyatlarının 180 gündən artıq olmayan müddətə kreditləşdirilməsi ilə əlaqədar hesablaşmaların həyata keçirilməsi üçün xarici valyutanın Azərbaycan Respublikasına və Azərbaycan Respublikasından köçürülməsi;
b) 180 gündən artıq olmayan müddətə maliyyə kreditlərinin alınması və verilməsi;
v) əmanətlər, investisiyalar, kreditlər və kapitalın hərəkəti ilə bağlı başqa əməliyyatlar üzrə faizlərin, dividentlərin və digər gəlirlərin Azərbaycan Respublikasına və Azərbaycan Respublikasından köçürülməsi;
q) Azərbaycan Respublikasına və Azərbaycan Respublikasından qeyri-ticarət xarakterli köçürmələr, o cümlədən, əmək haqqı, təqaüd, aliment və miras üzrə məbləğlərin köçürülməsi, eləcə də digər bu kimi əməliyyatlar.
10. «Kapitalın hərəkəti ilə bağlı valyuta əməliyyatları»:
a) birbaşa investisiyalar, yəni gəlir əldə etmək və müəssisənin idarə edilməsində iştirak etmək hüququna malik olmaq məqsədi ilə müəssisənin nizamnamə kapitalına qoyulan sərmayə;
b) qiymətli kağızların əldə edilməsi;
v) torpaq və yerin təki də daxil olmaqla binalar, qurğular, eləcə də yerləşdiyi ölkənin qanunvericiliyi ilə daşınmaz əmlaka aid edilən digər əmlak üzərində mülkiyyət hüququnun, habelə daşınmaz əmlak üzərində başqa hüquqların ödənilməsi üzrə köçürmələr;
q) malların, işlərin və xidmətlərin ixracı və idxalı üzrə 180 gündən artıq müddətə ödəniş möhlətinin verilməsi və alınması;
ğ) müvəkkil banklar tərəfindən valyuta vəsaitlərinin 180 gündən artıq müddətə depozitə cəlb edilməsi;
d) cari valyuta əməliyyatları olmayan bütün digər valyuta əməliyyatları.
11. «Müvəkkil banklar» — valyuta əməliyyatlarının aparılması üçün Azərbaycan Respublikasının Milli Bankının lisenziyasını almış banklar və digər kredit təşkilatlarıdır.

## *II fəsil. Valyuta Tənzimi*

### *Maddə 2. Milli valyuta ilə əməliyyatlar*

1. Rezidentlər arasında milli valyuta ilə hesablaşmalar heç bir məhdudiyyət qoyulmadan aparılır.
2. Azərbaycan Respublikasında qeyri-rezidentlər tərəfindən milli valyutanın əldə edilməsi və ondan istifadə edilməsi gaydası Azərbaycan Respublikası Milli Bankı tərəfindən müəyyən edilir.
3. Rezidentlər və qeyri-rezidentlər tərəfindən milli valyutanın və milli

valyutada ifadə edilmiş qiymətli kağızların Azərbaycan Respublikasından çıxarılması və göndərilməsi eləcə də Azərbaycan Respublikasına gətirilməsi və göndərilməsi Azərbaycan Respublikasi Milli Bankının və Azərbaycan Respublikası Nazirlər Kabinetinin birgə müəyyən etdikləri qaydada həyata keçirilir.

***Maddə 3. Azərbaycan Respublikasının daxili valyuta bazarı***

1. Azərbaycan Respublikasının MilliuBankının müəyyən etdiyi qaydada və məgsədlər ücün Azərbaycan Respublikasının daxili valyuta bazarında xarici valyutanı satmag və almag hüguguna malikdirlər.
2. Azərbaycan Respublikasında xarici valyutanın alınması və satılması Azərbaycan Respublikası Milli Bankının müəyyən etdiyi qaydada müvəkkil banklar vasitəsilə həyata keçirilir. Xarici valyutanın alqı- satqısı əqdləri bilavasitə müvəkkil banklar arasında, eləcə də Azərbaycan Respublikası Milli Bankının müəyyən etdiyi gayda və şərtlər daxilində fəaliyyət göstərən valyuta birjaları vasitəsilə həyata keçirilə bilər.

Müvəkkil bankların iştirakı olmadan xarici valyutanın alınması və satılmasına icazə verilmir.

3. Bu maddənin 1-ci və 2-ci bəndlərinin müddəalarını pozmaqla bağlanan xarici valyutanın alqı-satqısı əqdləri etibarsız sayılır.
4. Azərbaycan Respublikası Milli Bankı manatın sabitliyini təmin etmək məqsədi ilə xarici valyutanın alqı-satqısı üzrə əməliyyatlar aparmaqla valyuta bazarına müdaxilə edə və satış məzənnəsinin alış məzənnəsindən kənarlaşmasına hədd qoya bilər.

***Maddə 4. Valyuta sərvətləri üzərində mülkiyyət hüququ***

1. Azərbaycan Respublikasında valyuta sərvətləri həm rezidentlərin, həm də qeyri-rezidentlərin mülkiyyətində ola bilər.

Onlar, Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş hallar istisna olmaqla, valyuta sərvətləri ilə hər hansı əqdlər bağlamaq və əməliyyatlar aparmaq hüququna malikdirlər.

Azərbaycan Respublikasında valyuta sərvətləri üzərində mülkiyyət hüququ digər mülkiyyət obyektləri üzərində mülkiyyət hüququ ilə yanaşı dövlət tərəfindən müdafiə olunur.

2. Azərbaycan Respublikasında qiymətli metallar və təbii daş-qaşla əqdlərin bağlanması qaydası Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının Milli Bankı tərəfindən birgə müəyyən edilir.

***Maddə 5. Azərbaycan Respublikasının valyuta ehtiyatlarının formalaşması və ondan istifadə edilməsi***

1. Azərbaycan Respublikasının ərazisi vahid valyuta ərazisidir və bu ərazidə milli valyuta kimi manatın alıcılıq qabiliyyətinin möhkəmləndirilməsini təmin edən pul-kredit və valyuta siyasəti yeridilir.
2. Azərbaycan Respublikasının valyuta ehtiyatları milli valyutanın alıcılıq qabiliyyətini qorumaq, dövlətin iqtisadi tələbatı və sosial inkişafı ilə bağlı ehtiyacları ödəmək, xarici borcun ödənilməsi sahəsində öhdəlikləri yerinə yetirmək məqsədi ilə mərkəzləşdirilmiş xarici valyuta və digər valyuta sərvətləridir.

3. Azərbaycan Respublikasının valyuta ehtiyatları respublika büdcəsinin valyuta gəlirlərindən və sabitləşdirmə fondundan ibarətdir.
Azərbaycan Respublikasının valyuta ehtiyatlarının formalaşması qaydası Azərbaycan Respublikasının prezidenti tərəfindən müəyyən edilir.
4. Sabitləşdirmə fondu manatın məzənnəsinin sabitləşdirilməsini təmin etmək məqsədi ilə yaradılır və ondan istifadə edilməsi barədə sərəncamı Azərbaycan Respublikasının Milli Bankı verir.

***Maddə 6. Müəssisə və təşkilatların valyuta vəsaitinin formalaşması***

Həm rezident, həm də qeyri-rezident olan hüquqi şəxslərin valyuta vəsaiti xarici iqtisadi fəaliyyətdən, daxili valyuta bazarında valyuta alınmasından, valyuta kreditləri formasında, habelə Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan digər formalarda əldə edilən valyuta hasilatı hesabına formalaşır.

***Maddə 7. Rezidentlərin xarici valyutada hesabları***

1. Rezidentlər Azərbaycan Respublikasında müvəkkil banklarda xarici valyuta hesablarına malik ola bilərlər.
2. Azərbaycan Respublikasının Milli Bankı tərəfindən başqa hal müəyyən edilmədikdə rezident müəssisə və təşkilatlar əldə etdikləri xarici valyutanı məcburi şəkildə müvəkkil banklardakı öz hesablarına köçürməlidirlər.
3. Rezidentlər Azərbaycan Respublikası Milli Bankının müəyyən etdiyi hal və şərtlər daxilində Azərbaycan Respublikasının hüdudlarından kənarda xarici valyuta hesabı aça bilərlər.
4. Müvəkkil banklar tərəfindən rezidentlərin xarici valyuta hesablarının açılması və bu hesablar üzrə əməliyyatların aparılması qaydasını Azərbaycan Respublikasının Milli Bankı müəyyən edir.

***Maddə 8. Hüquqi şəxs olan rezidentlərin Azərbaycan Respublikasında valyuta əməliyyatları***

1. Hüquqi şəxs olan rezidentlər tərəfindən cari valyuta əməliyyatlarının həyata keçirilməsi üçün heç bir məhdudiyyət qoyulmur.
2. Kapitalın hərəkəti ilə bağlı valyuta əməliyyatları hüquqi şəxs olan rezidentlər tərəfindən Azərbaycan Respublikası Milli Bankının müəyyən etdiyi qaydada aparılır.
3. Hüquqi şəxs olan rezidentlər valyuta sərvətlərini köçürmə yolu ilə Azərbaycan Respublikasına gətirmək və Azərbaycan Respublikasından çıxarmaq, habelə gömrük prosedurlarına əməl etməklə nağd şəkildə ölkəyə gətirmək və ölkədən çıxarmaq hüququna malikdirlər.
Hüquqi şəxs olan rezidentlər tərəfindən valyuta sərvətlərinin Azərbaycan Respublikasına köçürülməsi və nağd şəkildə gətirilməsi, habelə Azərbaycan Respublikasından köçürülməsi və nağd şəkildə çıxarılması qaydalarını Azərbaycan Respublikasının Milli Bankı müəyyən edir.
Qiymətli metallarla və qiymətli daşlarla əməliyyatların aparılması ilə bağlı münasibətlər «Qiymətli metallar və qiymətli daşlar haqqında» Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

4. Azərbaycan Respublikası ərazisində xarici investisiyaların iştirakı ilə hüquqi şəxslərin öz məhsulunun ixracından əldə etdikləri valyuta hasilatından istifadə etməsi qaydası «Xarici investisiyanın qorunması haqqında» Azərbaycan Respublikasının qanunu ilə müəyyən edilir.

***Maddə 9. Fiziki şəxs olan rezidentlərin Azərbaycan Respublikasında valyuta əməliyyatı***

1. Fiziki şəxs olan rezidentlər əvvəllər Azərbaycan Respublikasına köçürülmüş valyuta sərvətlərini Azərbaycan Respublikasından maneəsiz köçürmək hüququna malikdirlər.

2. Fiziki şəxs olan rezidentlər əvvəllər Azərbaycan Respublikasına köçürülmüş valyuta sərvətlərini Azərbaycan Respublikası Milli Bankının müəyyən etdiyi qaydalara uyğun olaraq müvəkkil banklar tərəfindən verilmiş arayışlar əsasında gömrük prosedurlarına əməl etməklə nağd şəkildə Azərbaycan Respublikasından çıxara bilərlər.

3. Fiziki şəxs olan rezidentlər valyuta sərvətlərini gömrük prosedurlarına riayət etməklə Azərbaycan Respublikasına nağd şəkildə gətirə bilərlər. Fiziki şəxs olan rezidentlər tərəfindən Azərbaycan Respublikasının ərazisinə gətirilən valyuta sərvətlərinin məbləği 50 (əlli) min ABŞ dolları ekvivalentindən artıq olduqda, gömrük orqanları vəsaitlərin məbləği, gətirilmə tarixi, gətirmiş şəxs və onların gətirildiyi ölkə barəsində məlumatı 7 (yeddi) gün müddətində Azərbaycan Respublikasının Milli Bankına, *maliyyə monitorinqi orqanına* və müvafiq icra hakimiyyəti orqanına təqdim edir.

4. Fiziki şəxs olan rezidentlər Azərbaycan Respublikasına əvvəllər nağd şəkildə gətirilmiş 50 (əlli) min ABŞ dolları ekvivalentinədək valyuta sərvətlərini onların gətirilməsini təsdiqləyən gömrük sənədləri əsasında Azərbaycan Respublikasından kənara köçürə bilərlər. Fiziki şəxs olan rezidentlər Azərbaycan Respublikasına əvvəllər nağd şəkildə gətirilmiş valyuta sərvətlərindən 50 (əlli) min ABŞ dolları ekvivalentindən artıq məbləğdə valyuta sərvətlərini Azərbaycan Respublikasından kənara köçürdükdə, valyuta gətirilən ölkənin müvafiq bank və ya digər kredit təşkilatı tərəfindən bu vəsaitin ona nağd şəkildə verilməsini təsdiq edən arayış təqdim etməlidirlər.

5. Fiziki şəxs olan rezidentlər Azərbaycan Respublikasına əvvəllər nağd şəkildə gətirilmiş 50 (əlli) min ABŞ dolları ekvivalentinədək valyuta sərvətlərini gömrük prosedurlarına əməl etməklə Azərbaycan Respublikasından nağd şəkildə çıxara bilərlər.

6. Bu maddənin 1-5-ci bəndlərinə müvafiq qaydada Azərbaycan Respublikasına köçürülmüş və ya nağd gətirilmiş valyuta sərvətləri istisna olmaqla fiziki şəxs olan rezidentlərin digər valyuta sərvətlərinin Azərbaycan Respublikasından köçürülməsi və gömrük prosedurlarına əməl etməklə nağd çıxarılması qaydalarını Azərbaycan Respublikasının Milli Bankı, valyuta sərvətlərinin nağd çıxarılması zamanı ödənilməli olan rüsumların dərəcəsini isə müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

7. Fiziki şəxs olan rezidentlər özlərinin valyuta vəsaitlərini, o cümlədən Azərbaycan Respublikasında əldə etdikləri vəsaiti müvəkkil banklarda olan

valyuta hesablarına sərbəst daxil edə bilərlər.

***Maddə 10. Qeyri-rezidentlərin xarici valyutada və milli valyutada hesabları.***

Qeyri-rezidentlər müvəkkil banklarda xarici valyutada və milli valyutada hesablarını aça bilərlər. Bu hesabların açılması və onlardan istifadə edilməsi qaydasını Azərbaycan Respublikasının Milli Bankı müəyyən edir.

***Maddə 11. Qeyri-rezidentlərin Azərbaycan Respublikasında valyuta əməliyyatları***

1. Qeyri-rezidentlər valyuta sərvətlərini köçürmə yolu ilə Azərbaycan Respublikasına gətirmək və Azərbaycan Respublikasından çıxarmaq, habelə gömrük prosedurlarına əməl etməklə nağd şəkildə ölkəyə gətirmək və çıxarmaq hüququna malikdirlər.
2. Qeyri-rezidentlər Azərbaycan Respublikasına əvvəllər köçürülmüş valyuta sərvətlərini Azərbaycan Respublikasından maneəsiz köçürmək hüququna malikdirlər.
3. Qeyri-rezidentlər əvvəllər Azərbaycan Respublikasına köçürülmüş valyuta sərvətlərini Azərbaycan Respublikası Milli Bankının müəyyən etdiyi qaydalara uyğun olaraq müvəkkil banklar tərəfindən verilmiş arayışlar əsasında gömrük prosedurlarına əməl etməklə nağd şəkildə Azərbaycan Respublikasından çıxara bilərlər.
4. Qeyri-rezidentlər valyuta sərvətlərini gömrük prosedurlarına riayət etməklə Azərbaycan Respublikasına nağd şəkildə gətirə bilərlər. Qeyrirezidentlər tərəfindən Azərbaycan Respublikası ərazisinə gətirilən valyuta sərvətlərinin məbləği 50 (əlli) min ABŞ dolları ekvivalentindən artıq olduqda, gömrük orqanları vəsaitlərin məbləği gətirilmə tarixi, gətirmiş şəxs və onların gətirildiyi ölkə barəsində məlumatları 7 (yeddi) gün müddətində Azərbaycan Respublikasının Milli Bankına, *maliyyə monitorinqi orqanına* və müvafiq icra hakimiyyəti orqanına təqdim edirlər.
5. Qeyri-rezidentlər Azərbaycan Respublikasına əvvəllər nağd şəkildə gətirilmiş 50 (əlli) min ABŞ dolları ekvivalentinədək valyuta sərvətlərini onların gətirilməsini təsdiqləyən gömrük sənədləri əsasında Azərbaycan Respubliksından kənara köçürə bilərlər. Qeyri-rezidentlər Azərbaycan Respublikasına əvvəllər nağd şəkildə gətirilmiş valyuta sərvətlərindən 50 (əlli) min ABŞ dolları ekvivalentindən artıq məbləğdə valyuta sərvətlərini Azərbaycan Respublikasından kənara köçürdükdə, valyuta gətirilən ölkənin müvafiq bank və ya diger kredit təşkilatı tərəfindən bu vəsaitin ona nağd şəkildə verilməsini təsdiq edən arayış təqdim etməlidirlər.
6. Fiziki şəxs olan qeyri-rezidentlər Azərbaycan Respublikasına əvvəllər nağd şəkildə gətirilmiş 50 (əlli) min ABŞ dolları ekvivalentinədək valyuta vəsaitlərini gömrük prosedurlarına əməl etməklə Azərbaycan Respublikasından nağd şəkildə çıxara bilərlər.
7. Bu maddənin 1-6-cı bəndlərinə müvafiq qaydada Azəçrbaycan Respublikasına köçürülmüş və ya nağd gətirilmiş valyuta sərvətləri istisna olmaqla fiziki şəxs olan qeyri-rezidentlərin digər valyuta sərvətlərinin Azərbaycan Respublikasından köçürülməsi və gömrük prosedurlarına əməl etməklə nağd çıxarılması qaydalarını Azərbaycan Respublikası Milli Bankı

müəyyən edir.
8. Qeyri-rezidentlər Azərbaycan Respublikası Milli Bankının müəyyən etdiyi qaydada valyuta sərvətlərini manatla almaq və satmaq hüququna malikdirlər.

***Maddə 12. Valyuta tənzimi sahəsində Azərbaycan Respublikası Ali Sovetinin funksiyaları:***

Azərbaycan Respublikasının Ali Soveti valyuta siyasətinin ümumi prinsiplərini, xarici dövlət borcunun limitini, xarici ölkələrə verilən kreditlərin həcmini, Azərbaycan Respublikası büdcəsinin tərkib hissəsi kimi valyuta planını müəyyən edir, valyuta tənzimi və nəzarəti məsələlərinə dair qanunvericilik aktları qəbul edir.

***Maddə 13. Azərbaycan Respublikası Milli Bankı valyuta tənzimlənməsinin əsas orqanı kimi.***

1. Azərbaycan Respublikasının Milli Bankı Azərbaycan Respublikasında valyuta tənzimini həyata keçirən əsas orqandır.
2. Azərbaycan Respublikasının Milli Bankı bu qanuna müvafiq olaraq:
a) Azərbaycan Respublikasında xarici valyutanın və xarici valyutada qiymətli kağızların tədavülü sahəsini və qaydasını müəyyən edir;
b) valyuta əməliyyatlarının tənzimlənməsinə dair normativ aktlar qəbul edir;
v) rezidentlərin və qeyri-rezidentlərin Azərbaycan Respublikasında xarici valyuta ilə və xarici valyutada olan qiymətli kağızlarla əməliyyatlar aparması qaydalarını, habelə Azərbaycan Respublikasında qeyri-rezidentlərin milli valyuta ilə və milli valyutada qiymətli kağızlarla əməliyyatlar aparması qaydalarını müəyyən edir;
q) rezidentlərə məxsus xarici valyutanın və xarici valyutada olan qiymətli kağızların Azərbaycan Respublikasına məcburi köçürülməsi, gətirilməsi və göndərilməsi qaydasını, habelə Azərbaycan Respublikasının hüdudlarından kənarda rezidentlər tərəfindən xarici valyuta hesablarının açılmasının hal və şərtlərini müəyyən edir;
ğ) valyuta əməliyyatları aparmaq üçün banklara və digər kredit təşkilatlarına lisenziya verilməsinin ümumi qaydalarını müəyyən edir və onlara bu məqsədlə lisenziyalar verir;
d) valyuta əməliyyatları üzrə uçotun, hesabatın, sənədləşmənin və statistikanın vahid formalarını, habelə onların təqdim olunması qaydasını və müddətlərini müəyyən edir;
e) qəbul edilmiş beynəlxalq standartlar əsasında Azərbaycan Respublikası üzrə valyuta əməliyyatlarının statistikasını hazırlayır və dərc edir;
ə) bu qanunda və «Azərbaycan Respublikasının Milli Bankı haqqında» Azərbaycan Respublikasının qanununda nəzərdə tutulmuş digər funksiyaları yerinə yetirir.

***III fəsil. Valyuta Nəzarəti***

***Maddə 14. Valyuta nəzarətinin məqsəd və istiqamətləri.***

1. Valyuta nəzarətinin məqsədi valyuta əməliyyatları aparılarkən valyuta qanunveriliciyinə əməl olunmasını təmin etməkdir.
2. Valyuta nəzarətinin əsas istiqamətləri aşağıdakılardır:
a) aparılan valyuta əməliyyatlarının qüvvədə olan qanunveriliciyə uyğunluğunu və bunun üçün lisenziya və icazələrin olmasını müəyyən etmək;
b) dövlət qarşısında xarici valyuta üzrə və Azərbaycan Respublikasının valyuta bazarında valyutanın satışı üzrə öhdəliklərin rezidentlər tərəfindən yerinə yetirilməsi vəziyyətini yoxlamaq;
v) xarici valyuta ilə ödənişlərin əsaslandırılmış olduğunu yoxlamaq;
q) valyuta əməliyyatları, o cümlədən qeyri-rezidentlərin milli valyuta ilə əməliyyatları üzrə uçot və hesabatın tamlığı, və obyektivliyini yoxlamaq.

***Maddə 14-1. Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması***

*14-1.1. Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı aşağıdakı əməliyyatlar barədə məlumatları dərhal maliyyə monitorinqi orqanına təqdim etməlidir:*
*14-1.1.1. cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasında, terrorçuluğun maliyyələşdirilməsində, transmilli mütəşəkkil cinayətkarlığı, habelə silahlı separatizmi, ekstremizmi və muzdluluğu dəstəkləməsində, narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz dövriyyəsində iştirakı ehtimal olunan, maliyyə əməliyyatlarının aparılması zamanı eyniləşdirmə məlumatlarının açıqlanması tələb olunmayan dövlətlərin (ərazilərin) vətəndaşları, qeydiyyat, yaşayış və ya əsas fəaliyyət yeri həmin dövlətdə (ərazidə) olan şəxslər, eləcə də göstərilən dövlətlərdə (ərazilərdə) qeydiyyatdan keçmiş bankda hesaba malik olan şəxslər tərəfindən valyuta sərvətlərinin Azərbaycan Respublikasına gətirilməsi və ya Azərbaycan Respublikasından çıxarılması;*
*14-1.1.2. ilkin çıxış məntəqəsi bu qanunun 14-1.1.1-ci maddəsində göstərilən dövlət (ərazi) olan valyuta sərvətlərinin hər hansı şəxs tərəfindən Azərbaycan Respublikasına gətirilməsi və ya Azərbaycan Respublikasından çıxarılması.*

***Maddə 15. Valyuta nəzarəti orqanlapı və agentləri.***

1. Azərbaycan Respublikasında valyuta nəzarəti orqanları və onların agentləri tərəfindən həyata keçirilir.
2. Azərbaycan Respublikasının əsas valyuta nəzarəti orqanı Azərbaycan Respublikasının Milli Bankı və müvafiq icra hakimiyyəti orqanıdır, valyuta nəzarəti agentləri isə müvəkkil banklardır.
3. Azərbaycan Respublikasının gömrük siyasətini həyata keçirən icra hakimiyyəti orqanı rezident və qeyri-rezident tərəfindən milli və xarici valyutanın, eləcə də digər valyuta sərvətlərinin müvafiq qanunvericiliyə uyğun olaraq Azərbaycan Respublikasının gömrük sərhəddindən keçirilməsinə, habelə Azərbaycan Respublikasının Gömrük Məcəlləsi ilə nəzərdə tutulmuş digər hallarda valyuta nəzarətini həyata keçirir.

***Maddə 16. Valyuta nəzarəti orqanları və agentlərin səlahiyyətləri.***

1. Valyuta nəzarəti orqanları öz səlahiyyətləri daxilində bütün rezident və

qeyri-rezidentlər tərəfindən Azərbaycan Respublikasında icrası məcburi hesab edilən normativ aktlar qəbul edirlər.
2. Valyuta nəzarəti orqanları və agentləri öz səlahiyyətləri daxilində:
a) Azərbaycan Respublikasında rezident və qeyri-rezidentlər tərəfindən həyata keçirilən valyuta əməliyyatlarının mövcud qanunvericiliyə, lisenziya və icazələrin şərtlərinə nə dərəcədə uyğun gəlməsinə, həmçinin valyuta nəzarəti orqanlarının aktlarının yerinə yetirlməsinə nəzarət edirlər;
b) rezidentlərin və qeyri-rezidentlərin valyuta əməliyyatlarını yoxlayırlar;
v) rezidentlərin və qeyri-rezidentlərin valyuta əməliyyatları üzrə uçotun, hesabatın və sənədləşmələrin formsı və qaydalarını müəyyən edirlər.
***Maddə 17. Rezident və qeyri-rezidentlərin hüquq və vəzifələri.***
1. Azərbaycan Respublikasında valyuta əməliyyatları həyata keçirən rezident və qeyri-rezidentlər, həmçinin milli valyuta ilə və bu valyutada qiymətli kağızlarla əməliyyatlar aparan qeyri-rezidentlər aşağıdakı hüquqlara malikdirlər:
a) valyuta nəzarəti orqanları və agentləri tərəfindən aparılmış yoxlamaların nəticələri ilə tanış olmaq;
b) valyuta nəzarəti agentlərinin fəaliyyəti barədə müvafiq valyuta nəzarəti orqanlarına, valyuta nəzarəti orqanlarının fəaliyyəti barədə isə Azərbaycan Respublikasının ganunvericiliyinə müvafiq qaydada şikayət etmək;
v) bu qanunla və Azərbaycan Respublikasının başqa qanunvericilik aktları ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.
2. Azərbaycan Respublikasında valyuta əməliyyatları həyata keçirən rezidentlər və qeyri-rezidentlər, həmçinin milli valyuta ilə əməliyyatlar aparan qeyri-rezidentlər aşağıdakı vəzifələri yerinə yetirməyə borcludurlar:
a) valyuta nəzarəti orqanları və agentlərinə valyuta nəzarəti funksiyalarının yerinə yetirlməsi üçün zəruri olan informasiya və sənədləri təqdim etmək;
b) valyuta nəzarəti orqanları və agentlərinə onlar tərəfindən yoxlamaların aparılması zamanı, eləcə də yoxlamaların nəticələri üzrə izahatlar təqdim etmək;
v) valyuta nəzarəti orqanları və agentləri tərəfindən aparılan yoxlama aktlarında göstərilmiş faktlarla razılaşmadıqda aktın imzalanmasından imtina edilməsinin səbəbləri barədə yazılı izahat təqdim etmək;
q) onlar tərəfindən həyata keçirilən valyuta əməliyyatları üzrə uçot aparmaq və hesabat hazırlamaq, onları 5 ildən az olmayan müddətə saxlamaq;
ğ) aşkara çıxarılmış pozuntuların aradan qaldırılmasına dair valyuta nəzarəti orqanlarının tələblərini (göstərişlərini) yerinə yetirmək;
d) Azərbaycan Respublikası qanunvericiliyi ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

***Maddə 18. Valyuta qanunveirciliyinin pozulmasına görə məsuliyyət.***

1. Müvəkkil banklar da daxil olmaqla, bu qanunun müddəalarını pozmuş rezidentlər və qeyri-rezidentlər aşağıdakı şəkildə məsuliyyət daşıyırlar:

a) bu qanuna görə etibarsız hesab edilən əqdlər üzrə, habelə əqdlər üzrə deyil, qeyri-qanuni fəaliyyətlər nəticəsində əldə edilən gəlirlərin dövlətin mədaxilinə silinməsi;

b) müvəkkil banklar da daxil olmaqla rezidentlər və qeyri-rezidentlər valyuta əməliyyatları uçotunu aparmadıqlarına və onu müəyyən edilmiş qaydaların pozulması ilə həyata keçirdiklərinə, bu qanunun 17-ci maddəsinin 2-ci bəndinə müvafiq olaraq valyuta nəzarəti orqanlarına və agentlərinə sənədləri və məlumatları təqdim etmədiklərinə və ya vaxtında təqdim etmədiklərinə görə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

2. Bu maddədə göstərilən sanksiyaların tətbiq edilməsi valyuta nəzarəti orqanları tərəfindən, o cümlədən valyuta nəzarəti agentlərinin təqdimatı ilə hüquqi şəxslər üzrə mübahisəsiz qaydada, fiziki şəxslər üzrə isə məhkəmə qaydasında həyata keçirilir.

3. Valyuta qanunvericiliyinin pozulmasına görə rezident və qeyri-rezident olan müəssisə və təşkilatların, o cümlədən müvəkkil bankların vəzifəli şəxsləri, eləcə də fiziki şəxslər Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq surətdə inzibati, mülki-hüquqi və cinayət məsuliyyəti daşıyırlar.

***Maddə 19. Valyuta nəzarəti orqanları və agentlərinin vəzifəli şəxslərinin hüquq və vəzifələri.***

1. Valyuta nəzarəti orqanlarının və agentlərinin vəzifəli şəxsləri bu orqanların səlahiyyətləri daxilinda aşağıdakı hüquqlara malikdir:

a) onlar tərəfindən həyata keçirilən valyuta nəzarəti funksiyaları ilə əlaqədar bütün sənədləri yoxlamaq, yoxlamalar zamanı meydana çıxan məsələlər üzrə zəruri izahatlar və məlumatlar almaq, eləcə də valyuta qanunvericiliyi sahəsində pozuntuları əks etdirən sənədləri götürmək;

b) bu maddədə göstərilən sənədlərin və məlumatların təqdim edilmədiyi təgdirdə müvəkkil banklarda hesablar üzrə əməliyyatları dayandırmaq;

v) müvəkkil banklar da daxil olmaqla rezidentlərə, eləcə də qeyrirezidentlərə valyuta əməliyatlarını həyata keçirmək hüququ verən lisenziya və icəzələrin qüvvəsini dayandırmaq və ya onları ləğv etmək;

q) Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlara.

2. Valyuta nəzarəti orqanları və agentləri, onların vəzifəli şəxsləri valyuta nəzarəti funksiyasını yerinə yetirərkən rezident və qeyri-rezidentlərin onlara məlum olmuş kommersiya sirlərini qorumalıdırlar.

3. Valyuta nəzarəti orqanları və onların vəzifəli şəxsləri onlara həvalə

edilmiş vəzifələri lazımınca yerinə yetirmədikdə Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmuş qaydada məsuliyyətə cəlb oluna bilərlər.

***Azərbaycan Respublikasının Prezidenti***
***Heydər ƏLİYEV***
***Bakı şəhəri, 21 oktyabr 1994-cü il***
***№ 910***